# 1995-ci il mart hadisələri:
# dövlətçiliyimizi xalqın və hakimiyyətin monolit birliyi, Heydər Əliyevin düzgün siyasəti və qətiyyəti xilas etdi

*1993-cü ildən başlayaraq, Azərbaycan bu günə qədər uğurlu inkişaf yolu ilə gedir. Baxmayaraq ki, 1994-cü və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir, ancaq Azərbaycan xalqı imkan vermədi ki, cinayətkar ünsürlər hakimiyyəti bir daha qanunsuz zəbt etsinlər. Əlbəttə ki, Heydər Əliyevin nüfuzu, onun cəsarəti, onun siyasəti imkan vermədi ki, kimsə hakimiyyəti qanunsuz yollarla zəbt etsin.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***1995-ci ilin mart hadisələrindən iyirmi beş il keçir. Həmin hadisələr Azərbaycan xalqının, müstəqillik yolunda ilk kövrək addımlarını atan bir dövlətin tarixində iki cəhətdən yadda qalıb. Birincisi, hər addımda qışqıra-qışqıra dövlətin, dövlətçiliyin tərəfində durduğunu, guya xalqını, Vətənini canından artıq sevdiyini bəyan edənlərin iç üzləri açıldı. Sən demə, bütün bu "canıyananlıq", Vətən, xalq, millət "sevgisi" bir qrup vəzifə hərisinin hakimiyyətə gəlmək naminə boğazdan yuxarı dediyi quru sözlər imiş. Xalq həmin hadisələrdə öz cılız ambisiyaları üçün müstəqilliyi məhvə aparmağa hazır olan, millətinin qanına susamış xəyanətkarları tanıdı. İkincisi, dövlət özünü qorumaq iqtidarında olduğunu bir daha göstərdi.***

Hər il ölkəmizə Novruz bayramı qədəm qoyanda, 25 il əvvəl -- Novruz bayramı ərəfəsində baş vermiş acı hadisələr göz önünə gəlir, hakimiyyəti silahlı yolla ələ keçirmək istəyənlərin xəyanətkar əməlləri yada düşür. Dərhal da şükür edirik ki, həmin dövrdə ölkəyə dövlət idarəçiliyində zəngin təcrübəsi olan Heydər Əliyev kimi böyük tarixi şəxsiyyət rəhbərlik edirdi. Ulu öndərin uzaqgörənliyi və müdrikliyi dövlət çevrilişinin qarşısını aldı, xəyanətkarların xəbis niyyətləri baş tutmadı, müstəqilliyimiz daha da möhkəmləndirildi, əbədi oldu.

Ümumiyyətlə, ulu öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycanda sabitlik dövrü başlamışdı. Ölkəmiz üçün çox önəmli qərarlar qəbul edilmişdi, siyasi islahatlara start verilmişdi. Məhz o illərdə inkişafımız və müstəqilliyimizin əbədi olması üçün strateji əhəmiyyətli seçimlər edilmiş, Azərbaycanın müasir, demokratik ölkə kimi inkişafı prioritet vəzifə olaraq qarşıya qoyulmuşdu. İqtisadi islahatlara start verilmiş, bazar iqtisadiyyatına keçidin əsası qoyulmuş, demokratik prinsiplərin inkişafı diqqət mərkəzində saxlanılmışdı. Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası istiqamətində qətiyyətli addımlar atılmış, qonşu dövlətlərlə münasibətdə əsaslı dönüş yaradılmışdı. Ölkəmiz üçün lazım olan beynəlxalq əlaqələr Azərbaycana investisiya cəlb edilməsində mühüm rol oynamışdı.

1994-cü ildə "Əsrin müqaviləsi" imzalandıqdan sonra müstəqilliyimizi gözü götürməyən qüvvələr ciddi narahat olmağa başladılar. Axı, bu müqavilə ölkəmizin tarixində, iqtisadi inkişafımızda müstəsna rol oynayacqdı. Bundan sonra iqtidara qarşı hücumlar, dövlət çevrilişinə cəhdlər başlandı. 1994- cü ilin oktyabrında baş tutmayan dövlət çevrilişindən sonra xəyanətkarlar 1995- ci ilin martında yenidən öz çirkin niyyətlərini reallaşdırmağa cəhd etdilər.

Həmin il xalqımız Novruz bayramını təntənəli şəkildə qeyd etməyə hazırlaşdığı bir vaxtda antidövlət kampaniyasında fəallıq göstərən Xüsusi Təyinatlı Polis Dəstəsinə rəhbərlik edən Rövşən Cavadov və o vaxt Xətai rayon prokuroru işləyən Mahir Cavadov qardaşları öz çirkin niyyətlərini həyata keçirməyə başladılar. Bu dəfə XTPD-nin üzvləri öz xəyanətkar əməllərinə regionlarda başlamışdılar.

Qazax rayonunda Xüsusi Təyinatlı Polis Dəstəsinin bölmələri 1995-ci il martın 12-dən 13-nə keçən gecə Müdafiə Nazirliyinin bu ərazidəki hərbi hissələrindən birinə silahlı basqın edərək, 5 ədəd zirehli texnikanı ələ keçirdilər. Onu da qeyd edək ki, Rövşən Cavadovun himayədarlıq etdiyi bu dəstə neçə vaxt idi ki, benzin, narkotik maddələr qaçaqmalçılığı və silah alveri ilə məşğul olurdu. Onlar artıq heç bir təşkilata tabe olmaq istəmirdilər. Xidməti nizamnamə tələblərini kobud surətdə pozan dəstənin müəyyən hissəsi qatı cinayətkar əməllər törətməkdən belə çəkinmirdi. Mahir və Rövşən Cavadov qardaşlarının tapşırıqlarını yerinə yetirən qeyri-qanuni silahlı qruplaşma Qazax və Ağstafada, həmçinin ətraf bölgələrdə dövlətçiliyimizə zərbə vura biləcək qanunsuz addımlar atır, regionun əhalisini vahimə içərisində saxlayırdılar. Hüquq-mühafizə orqanlarının fəaliyyətini pozan XTPD-nin qanunsuz əməlləri, hegemonluğu ictimaiyyətin hiddətinə səbəb olmuşdu. Onların özbaşınalıqları, cinayət əməlləri bu qurumun vətənpərvər, xalqını sevən üzvlərini də nüfuzdan salırdı. Artıq xalq XTPD-ni qanunun və asayişin keşiyində duran bir qurum kimi deyil, azğınlaşmış cinayətkar dəstə kimi tanıyırdı. Çünki qısa vaxt ərzində artıq ikinci dəfə idi ki, bu qurumun üzvləri silahlı yolla hakimiyyəti ələ keçirməyə cəhd edirdilər. Onlar Qazax və Ağstafa rayonlarında kriminogen vəziyyəti getdikcə gərginləşdirir, dövlət idarələrinin normal fəaliyyətini pozmağa çalışırdılar.

Azğınlaşmış XTPD əməkdaşlarının rəhbərliyi ilə martın 12-dən 13-nə keçən gecə əksəriyyəti maskalarda olan 200-300 nəfər silahlı şəxs 2 BMP və 2 tankla Qazax Rayon Polis Şöbəsinə hücum edərək, növbətçi hissəni ələ keçirmiş, şöbəyə məxsus 217 ədəd avtomat, 217 ədəd tapança, 18 ədəd qumbaraatan və digər hərbi ləvazimatları, poçt, polis şöbəsi və rayon icra hakimiyyətinin inzibati binalarını ələ keçirdi. Həmin gün səhərə yaxın XTPD-nin 100 nəfərə qədər silahlı əməkdaşı və naməlum şəxslər zirehli texnikanın gücü ilə Ağstafa Rayon Polis Şöbəsinə basqın ediblər. Şöbəyə məxsus 35 ədəd avtomat, 52 ədəd tapança, 2 ədəd qumbaraatan, 1 ədəd pulemyot, digər sursatlar, şəxsi heyətə veriləcək 6 milyon manat pul, xidməti QAZ-24 markalı avtomobil aparıldı, xidməti UAZ markalı avtomaşın yararsız hala salındı, polisin inzibati binası dağıdıldı, müvəqqəti saxlama təcridxanasında saxlanılan 14 nəfər dustaq buraxıldı.

Daha sonra XTPD-nin bir qrup silahlı əməkdaşı Bakı-Qazax yolunun Tovuz rayonunun sərhədində yerləşən yol nəzarət məntəqəsinə hücum etdi, Tovuz Rayon Polis Şöbəsinin əməkdaşlarından zorla 8 ədəd avtomat və 2 ədəd tapança alındı. Getdikcə azğınlaşan quldur dəstəsi Ağstafa rayonunun Köçəsgər yaşayış məntəqəsi yaxınlığındakı "Cavanşir" restoranı ətrafında mövqe tutaraq, dövlət hakimiyyət orqanlarına qarşı təcavüzkar niyyətlərini açıq şəkildə bəyan edirdilər. Quldur dəstəsi Müdafiə Nazirliyinin Tovuzda yerləşən qoşun hissəsinə də silahlı basqın etdi. Quldurlar hərbi hissəyə qəfil hücum etməklə oradakı əsgərləri də öz sıralarına qoşmaqla daha böyük qüvvə toplamağa çalışırdılar. Lakin budəfəki niyyətləri baş tutmadı. Hərbi hissənin şəxsi heyəti azğınlaşmış qeyri-qanuni silahlı dəstənin hücumunu dəf etdi, qısamüddətli döyüş nəticəsində hökumət qoşunları əvvəllər ələ keçirilmiş zirehli texnikanı da geri aldı, üstəlik, basqınçıları "Cavanşir" restoranının yaxınlığında tutduqları mövqedən vurub çıxardı.

XTPD başçısının ərköyünlüyü və bu qurumun bir qrup üzvünün özbaşınalığı, qanunlara tabe olmaması və quldurluq əməli dözülməz hala çatmışdı. Respublikanın o vaxtkı Daxili İşlər naziri, general-mayor Ramil Usubovun 14 mart 1995-ci il tarixli əmri ilə Xüsusi Təyinatlı Polis Dəstəsi ləğv edildi. Ulu öndərin qətiyyəti, respublika hüquq-mühafizə orqanlarının gördüyü operativ tədbirlər nəticəsində hər iki rayonda dövlət orqanlarının normal fəaliyyəti bərpa olundu.

13-14 mart hadisələri bir daha təsdiqlədi ki, Xüsusi Təyinatlı Polis Dəstəsi üzərinə düşən vəzifəni bir kənara qoyaraq, mafioz qruplarla və cinayətkar birləşmələrlə cinayət əlaqəsinə girmiş, xeyli sayda ağır cinayət törətmişdir. Halbuki, Xüsusi Təyinatlı Polis Dəstəsini yaradarkən qarşıya qoyulan əsas vəzifə respublikada başlanan erməni separatçı hərəkatının, torpaqlarımızın və xalqımızın təcavüzə məruz qalmasının qarşısını almaq idi. Təəssüf ki, yaxşı silahlanmış və təlim görmüş, xaricdən dəstəklənən düşmənlərlə mübarizə aparmaq məqsədi ilə yaradılmış XTPD-nin xəyanətkar üzvləri silahı öz xalqına, ölkədə ciddi intizam, qayda-qanun yaradan hakimiyyətə tuşladı. Əsas məqsədləri isə hakimiyyəti qeyri-qanuni yolla, silah gücünə devirmək idi. Ancaq onların bu xəbis niyyətləri baş tutmadı. Ulu öndər Heydər Əliyevin müdrikliyi və qətiyyəti dövlət çevrilişinin qarşısını aldı. Bundan sonra isə Azərbaycanın müstəqilliyi daha da möhkəmləndirildi və əbədi oldu.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***